**UOT 82**

# "KİTAB OĞRUSU" ƏSƏRİNDƏ RƏNG SİMVOLİKASININ TƏZAHÜRÜ

**Nərmin HƏMİDOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 18 mart 2023; çapa qəbul edilmişdir: 24 aprel 2023; online-da çap edilmişdir: 31 may 2023.

Received: 18th of March, 2023; accepted: 24th of April, 2023; published online: 31st of May, 2023

**Açar sözlər**: *simvol, rəng, "Kitab oğrusu", Markus Zusak, Avstraliya*

## Giriş

Simvol insanın ilkin kəşflərindən biridir desək, yanılmarıq. Bu vasitə ilə insanlar özlərini ifadə etmiş, qeydlər aparmış və gələcək nəsillərə öz təcrübələrini ötürməyə çalışmışlar. Simvolların yaranma dövrü, ifadə etdiyi məna, məruz qaldığı dəyişikliklər, tarixi daim dünya tədqiqatçılarının maraq dairəsində olmuşdur. İngilis yazıçısı Cozef Pirsi simvolların mənşəyinə və açılışına həsr etdiyi kitabının giriş hissəsini ingilis filosofu Aldus Huksleyin sözləri ilə açır: "*Dil, riyaziyyat, rəsm, musiqi və mərasimlərlə əlaqəli çox çeşidli simvollar sistemi istifadə edirik. Bu simvol sistemləri olmasaydı sənətdən, elmdən, hüquqdan, fəlsəfədən və hətta mədəniyyətin təməl bilgilərindən məhrum qalardıq: başqa sözlə, heyvandan fərqimiz qalmazdı*" (4, s. 11). Filosofun ifadə etdiyi fikirlərlə simvol sisteminin insan mədəniyyəti tarixində nə qədər önəmli rol oynadığı göstərilir.

Simvol termini uzun müddət alleqoriya, rəqəm, emblem və s. kimi sözlərin qarşılığı olaraq işlənmişdir. Lakin zaman keçdikcə bu sözlərin kəsb etdiyi mənalardan arınmış və hazırkı mənasını almışdır.

Simvolların ən geniş yayılmış formalarından biri rəng simvolikasıdır. Rənglərə müəyyən məna verilərək, simvola çevrilməsinin tarixi çox qədimdir. Rəng simvolikasından gündəlik həyatda istifadə olunduğu kimi, bədii ədəbiyyatda da istifadə olunmuşdur.

## 1. Rəng anlayışı və simvolikası

Simvolun ifadə etdiyi məna ilə onun xarici aləmdə olan təzahür forması arasında, yəni fiziki işarəsi arasında bir bağlılığın olub-olmamasına dair fikir ayrılıqları var. Fransız dilçisi F.Sössürün fikrincə, "*Fiziki simvolların təmsil olunmaq üçün nəzərdə tutduqları ilə birbaşa əlaqəsi yoxdur. Məhz bu əlaqənin kəsilməsi, svastikanın qədim sağlamlıq simvolundan nasist partiyasının işarəsinə çevrilməsinə imkan verib*". (4, s. 12) Alimin simvolla bağlı digər fikri isə belədir: "*Simvollar, hər hansı bir işarə kimi, həmişə yalnız təkamül yolu ilə, obyektlər arasında münasibətlərin şüursuz qurulması nəticəsində yaranır. Onlar icad edilmir və təsadüfən seçilmir. Fikir olmadan simvol çətin ki, yaşaya bilsin*". (7, s. 340)

Simvolun mahiyyətini açıqlasaq "dolayı yolla fikir bildirmək" kimi yorumlaya bilərik. "*Simvol yalnız dolayı, ikinci dərəcəli mənada nəyisə bildirir; o, ilk növbədə özlüyündə mövcuddur və yalnız ikinci dərəcəli şəkildə biz onun eyni zamanda nəyisə ifadə etdiyini aşkar edirik*" (7, s. 234). Hər bir simvol özündə bir informasiya daşıyır. Bu informasiya

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* hemidovanermin88@gmail.com

həm müsbət, həm də mənfi ola bilər. Həmçinin eyni bir simvol hər iki məna ilə yüklənə bilər. "*Hər bir simvol subyektin həqiqi münasibətlərinin dərhal başa düşülməsi üçün nəzərdə tutulmuş, sıxlaşdırılmış məlumat paketidir. Fərdin həm müsbət, həm də mənfi davranışının mənbəyinə çevrilə bilər"*. (12, s. 138)

Tarixən mövcud olan simvollarla yanaşı, yeni yaranan simvollar da günümüzdə aktualdır. Elm və texnikanın inkişafı ilə əlaqədar yeni simvollar sistemi yaranmışdır. Sosial şəbəkələrdə istifadə olunan simvolların hər biri müəyyən bir mənaya malikdir. Ancaq maraqlıdır ki, bu simvolların da kökü keçmişlə bağlıdır. Yeni hesab etdiyimiz simvollar əvvəllər də istifadə olunub. Lakin bu, geniş kütlələrə yayılmadığından və ya indiki mənası ilə üst-üstə düşmədiyindən istifadəçilərə yeni kimi görünür.

İşarələrə mənalar yükləndiyi kimi, insanlar tarixən rənglərə də məna vermiş və rənglər vasitəsilə müəyyən bir mesaj verməyə çalışmışlar. Bəşər övladı demək olar ki, öz varlığının fərqinə vardığı zamandan etibarən elə təbiətdə rənglərin də fərqinə varmışdır. İlkin olaraq ağ və qara rənglər anlayış olaraq ortaya çıxmışdır. *"B.Berlin və P.Key göstərdilər ki, hər bil dildə ilkin olaraq "ağ" və "qara" anlayışlarını bildirən sözlər, daha sonra "qırmızı", "sarı", "göy", "yaşıl" və s. anlayışlar ortaya çıxmışdır"*. (11, s. 139) Ağ və qara rənglərin ilkin rəng anlayışı olaraq yaranmasının səbəbi təsadüfi deyil. Belə ki, insanların həyatında gecə və gündüz mühüm rol oynamışdır. Gündüz vaxtı insanlar özlərini daha gümrah və təhlükəsiz, gecə isə qaranlıq olduğundan daha təhlükədə və qorunmasız hiss etmişlər. Bu hisslər ağ və qara rənglərin onlarda müsbət və mənfi assosasiyasına səbəb olmuşdur. *"İnsan həyatı həmişə gecə və gündüzün dəyişməsi ilə tənzimlənirdi: işıq və gündüz aktiv fəaliyyət, həyatın istiliyi; gecə və qaranlıq isə - pislik, soyuq, ölüm, təhlükə ilə əlaqələndirilirdi... Əksər mədəniyyətlərdə ağ və* qara *rənglərin zidd mövqedə dayanmaları onların ibtidai olduğunu sübut edir"*. (8, s. 31)

Öz tarixiliyi ilə tanınan daosizm təliminin əsasında da məhz bu iki rəng – ağ və qara dayanır. Ağ rəng – kişi başlanğıcını və səmanı, qara rəng isə qadın başlanğıcı və torpağı simvolizə edir.

Erkən mədəniyyətlərdə rəng simvolizminin yaranması mifoloji və dini dünyagörüşünün təsiri ilə əlaqədardır. Belə ki, xalqların mifologiyasına, mənsub olduqları dinlərə və ya yaşadıqları coğrafi-tarixi şəraitə nəzər yetirdikdə rənglərə verilən mənalarla bağlı müxtəlifliyə rast gəlinir. Mənalar arasında fərqlər olsa da, eyniliklər də az deyil. Buna nümunə olaraq, ağ rəng, demək olar ki, bütün mədəniyyətlərdə saflıq, ucalıq, ilahi işıq, müdriklik rəmzidir. İslam dinində ağ və yaşıl rənglər önəmlidir. Ağ rəng müqəddəs rəng hesab olunur. Buna görə də, müqəddəslərin üzü ağ rəngdə təsvir olunur. Yaşıl rəng isə cənnətin rəngidir. Xristian dinində ağ rəng təmizlik və ucalıq kimi anlaşılır. İsa Məsihin geyimi, mələklərin və Məsihin həvarilərinin rəsmləri ağ rəngdə təsvir edilir. Çin mədəniyyətində isə bu rəng mənfi yüklüdür. Ölümlə əlaqələndirildiyi üçün dəfn mərasimlərində istifadə olunur. *"Qırmızı və ağ hadisə" frazeoloji vahidi vardır ki, burada "ağ hadisə" dəfn mərasimi mənasında işlədilir... Həmçinin ağ rəng məğlubiyyət və axmaqlığı simvolizə edir"*. (13, s. 237) "Ağ insan" ifadəsi də mənfi aspektdə işlənir. Həmçinin bu rəng xainlik və hiyləgərlik rəmzidir. Dilimizdə mövcud olan "ağ yalan" ifadəsini də deyilənlərə misal göstərə bilərik. Burada ağ müsbət mənada deyil, əksinə, yalanın dərəcəsini bir az da artıraraq mənfi planda işləndiyini müşahidə edirik.

Ağ rəngin mənfi mənada işlənməsinə çox az rast gəlinsə də, qara rəng üçün bu xarakterikdir. Əksər xalqların dünyagörüşündə qara mənfi plandadır. Qədim Bizansda qara rəng ölümün rəmzi idi. Necə ki, ağ rəng hüzuru, müqəddəs ruhun varlığını bildirir, qara rəng onun əksinə olaraq, Tanrıdan tamamilə uzaqlaşmağı, zahiri qaranlığı, insanı görünməzdən ayıran sirri, ruhi və psixoloji gərginliyi, şəri bildirir. Həmçinin bu rəng yeraltı dünyanı, onun sakinlərini, xaosu, cahilliyi də ifadə edir. Uzaq Şərqdə bu rəng müsbət mənada işlənə bilir. *"Qara rəng etik və ciddidir. Bir tərəfdən ədalət və təntənəni*

*simvolizə edir, məsələn, Çin xalq əfsanəsinin qəhrəmanı Baogun qara üzlüdür"* (13, s. 236)

Bundan başqa, qara rəng torpağı simvolizə etdiyi hallarda müsbət planda təzahür edir. Belə ki, torpaq özü məhsuldarlığı ifadə edir. Bu halda qara məhsuldarlığın rəmzi olaraq çıxış edir.

Rənglərin formalaşdığı sonrakı mərhələdə, bir-birinə əks mövqedə dayanan ağ və qara rəng ikiliyinə üçüncü bir rəng – qırmızı əlavə olunur. Ümumiyyətlə, müxtəlif xalqların qədim mədəniyyətlərinə nəzər yetirdikdə əsas olaraq üç rəngə önəm verilmişdir: ağ, qara və qırmızı. *"Onlar mifoloji mənada işarə kimi işlədilir və heç nəyi simvolizə etmir, əksinə özlüyündə bir nəsnəni bildirir... Rəng özü bir növ söz idi – yaxşı və ya pis. Rəng insanın Tanrı və ya müqəddəs ruhla ünsiyyətini saxlamaq kimi vacib funksiyanı yerinə yetirirdi, yəni rəng də söz kimi məfhum idi".* (8, s. 32) Qırmızı rəng sevgi, azadlıq, mübarizə rəngidir. Tədqiqatçıların apardığı araşdırmalar göstərir ki, arxaik insanlar ilk olaraq gündəlik həyatda, yəni ritualları icra edərkən və ya maddi mədəniyyət obyektlərini rəngləyərkən qırmızı boyadan istifadə etmişlər. Avstraliya aboriqenlərində xəstə şəxsin bədənini qırmızı oxra ilə ovmaq kimi bir ritual olmuşdur. Təbiətdən saf halında alınan oxra inanca görə qanı simvolizə edirdi. Bununla da xəstəyə həyati güc verilirdi. Qədim adətimizə görə, qızılca xəstəliyinə tutulan insanı qırmızı yataqda uzandırardılar. Bununla da həmin insanın xəstəliyini daha rahat keçirdiyinə inanılırdı.

Şərqdə də qırmızı rəng qan, enerji, həmçinin güc, ehtiras kimi mənalandırılır. *"Çində qırmızı rəngin simvolikası özünü dildə təzahür etdirir. "qırmızı qapını açmaq", "sizə qırmızı ömür arzulayıram", "qırmızı tale – bu kimi ifadələr yeni həyatın parlaq başlanğıcından xəbər verir... İnsanlar qadını gözəl hesab etdikdə ona "qırmızı üzlü", "qırmızı geyimli", "qırmızı ətək" kimi ifadələr işlədirlər. Gündəlik həyatda bu sözlərdən istifadə olunur".* (13, s. 236)

Xalqların psixologiyasında sarı və ya sarının qızılı çaları paralel şəkildə həm mənfi, həm də müsbət yüklüdür. Sarı rəng çox hallarda günəşi ifadə etdiyindən müsbət aspektdədir. Xüsusilə də qızılı sarı bu baxımdan vurğulanır. Lakin sarı rəng daha açıq variantda ayrılığa və xəstəliyə işarədir. Hər iki hal təsadüfi deyil. Belə ki, günəş parlaq olduğundan onun rəngi qızılıya bənzədilir. Açıq sarı rəng isə xəstə insanın halının əlamətidir. Tibb elmində, xüsusilə qaraciyər xəstələrinin rənginin saraldığı müşahidə olunur.

Yaşıl, göy, qəhvəyi, boz kimi rənglərin mənalandırılmasında, demək olar ki, stabillik müşahidə olunur. Yaşıl və göy rənglər yaxşı, qəhvəyi və boz rənglər isə pis hal və hadisələrlə assosiasiya olunur.

Buddizmdə də rənglərə böyük önəm verilir. Bu dini təlimə görə, 5 əsas rəng vardır. Bunlar ağ, qırmızı, yaşıl, sarı və göy rənglərdir. "*Onlar tanrıların beş obrazı kimi qəbul olunurlar".* (10, s. 137)

Türk xalqlarının mədəniyyətinə diqqət yetirdikdə rənglərin təkcə rəng olaraq deyil, həmçinin bir məfhum kimi dəyərləndirilməsi görülür. Türk kosmoqonik sistemində dörd istiqamət var. *"Bu dörd əsas istiqamətin hər birinin öz rəngi var: şimal qara, cənub qızılı, şərq göy, bəzən yaşıl, qərb ağ rəngdə. Sarı – dünyanın mərkəzinin göstəricisidir".* (9, s. 65)

## 2. Bədii ədəbiyyatda rənglərin simvolikası

Rəng simvolikası bədii əsərlərdə də təzahür edir. Həm dünya ədəbiyyatı, həmçinin də Azərbaycan ədəbiyyatı nümayəndələrinin əsərlərində rənglərin mənalandırılmasına rast gəlinir. Nizaminin "Yeddi gözəl", Şekspirin daha çox "Şotland pyesi" kimi tanınan, lakin orijinal adı "Maqbet" olan, Çao Syueçinyanın "Qırmızı köşkdə yuxu" və s. kimi əsərlərdə rəng simvolizminə yer verilib. Şair R.Rzanın "Rənglər" silsiləsi isə tamamilə rənglər və onların ifadə etdiyi mənaya həsr olunub. Belə ki, burada rəng simvolikası güclüdür.

Türkiyəli yazıçı Ömər Seyfəddinin "Bahar və kəpənəklər" adlı hekayəsində də nəvə

ilə nənənin dialoqunda yaşlı qarı nəvəsinə xatirələrindən danışarkən qədim inancdan da bəhs edir:

*"..Sarı və ya qara kəpənək görəcəyimizdən ehtiyat edər, həyəcan keçirərdik.*

*-Niyə?*

*- Çünki hər kəpənək rənginin bir mənası vardı: ağ kəpənək səadət, uğura, çəhrayı kəpənək – səhhət və bolluğa, sarı – dərd və xəstəliyə, qara isə matəm və faciəyə işarə idi"* (1, s. 227) Göründüyü kimi, burada da rənglər müəyyən məna biçimi alır. Gələcəkdən xəbər vermə funksiyası daşıyır.

Yuxarıda qeyd etdiyimiz kimi, R.Rzanın "Rənglər" silsiləsi rəng və onun arxasında gizlənən spesifik məna ilə bağlıdır. Bu əsərdə rənglər arxasında gizlənən mənalarda həm hər kəsə məlum olanlar, həmçinin şairin şəxsi təxəyyülündə yaratdığı məfhumları görmək mümkündür. Şair üçün rəng müəyyən nəsnəni belə ifadə edir. "*Gördüyümüzdən artıq görmək istəməsək, hər rəng adicə boyadır".* (2, s. 228) Burada həmçinin rənglərin daşıdığı bir-birinə zidd mənalar da əksini tapır. Hər rəngə və onun çalarına mənfi və ya müsbət baxış prizmasından yanaşılır:

*Qırmızı qan da ola bilər,*
*bahalı üzük qaşı da.*
*Qara matəm rəmzi də ola bilər,*
*məhəbbət rəmzi də,*
*nifrət rəmzi də.* (2, s. 227)

"Qırmızının ümid çaları", "Mavinin təsəlli çaları", "Ağ rəngin məhəbbət çaları" kimi hissələrdə rənglər boya olmaqdan uzaqlaşır, həyatın bir anının, çarəsizliyin, insan hisslərinin ifadəsinə çevrilir.

Müharibə mövzulu əsərlərdə daha çox qırmızı və qara rəngləri görmək mümkündür. Əslən kambocalı Vaddey Ratnerin 2012-ci ildə işıq üzü görən "Banyan ağacının kölgəsində" əsəri "Qırmızı kxmerlər" adlı kommunist təşkilatın Kambocada 1975 - 1979-cu illər ərzində törətdiyi dəhşətlərdən bəhs edir. Burada qırmızı rəng daha çox günahsız insanların axıdılan qanı, qara rəng isə əsir altına düşmüş xalqın taleyini simvolizə etdirir. Real hadisələrə əsaslanan romanda hər kəsin qara geyindiyi, hakim qüvvənin əmri ilə al-əlvan paltarlardan imtinası gözlər önünə sərilir.

### 3. "Kitab oğrusu" əsərində rəng simvolikası

Avstraliya yazıçısı M.Zusakın "Kitab oğrusu" əsərində də rəng simvolizminə rast gəlinir. Əsərdəki bütün hekayəni Ölüm adlı təhkiyəçi nəql edir. Oxucu məhz onun gözü ilə rənglərdəki mənanı görür. Onun ilk sözü bunlardır : *"Öncə rənglər. Sonra insanlar. Mən, adətən, dünyanı belə görürəm. Yaxud belə görməyə çalışıram".* (3, s. 9) Bu sözlərdən sonra onun üçün rənglərin necə önəmli olduğu aydın olur. Ölüm rənglərin saysız çalarını ayırd edə bilir və bildirir ki, bir rəng digərinə bənzəmir. Hər bir rəngin öz mənası var. Rəngləri görə bilmək üçün çox vaxt səmaya baxır. O gördüyü bütün rənglərdən zövq almağa çalışır. Özünü isə tünd rəngdə – şokolad rəngində təsvir edir. "*İnsanlar rəngləri gündoğanda və batanda görə bilirlər, mən isə hər günün hər saniyəsinin saysız – hesabsız çalarların və intonasiyaların içərisindən keçdiyini dəqiq görürəm... Mum sarısı, bulud ləkəli mavi. Solğun dan yeri. Mənim işim belədir: bu rəngləri görməyi qarşıma məqsəd qoymuşam"* (3, s. 11) Ölüm üçün rənglər həm də bir növ əyləncə və fikrini dağıtmaq, sağ qalanlardan fikrini yayındırmaq üsuludur. Onları acı çəkərkən görməsini əngəlləyən bir vasitədir, bir qurtuluşdur. Özünün də dediyi kimi axı onun da qəlbi var. Bu qədər insanın ruhunu daşımaq heç də asan deyil. Ancaq onun qəlbi də özü kimi qara rəngdədir. *"Qaranlıq ürəyimin döyünən zülmətində mən bunu görürəm... Görürsünüzmü? Ölümün də ürəyi var"* (3. s. 265)

Fikrimizcə, müəllif tərəfindən Ölümün qara rəngdə təsviri heç də onu mənfi planda vermək üçün seçilməyib. Xalqların qədim dünyagörüşündə qara rəng sonsuzluğu və bilinməzliyi simvolizə edir. Ölüm də məhz bu keyfiyyətlərə sahibdir. Həmçinin Ölüm bu dünyanın varlığı deyil. Mifik düşüncəyə görə, başqa dünyadan olan varlıqların, xüsusilə insan ölümüylə bağlı olanların rəngi hər zaman qaradır.

Əsərin qəhrəmanlarından biri olan Lizelin qardaşının torpağa tapşırıldığı vaxt hər tərəfi bəmbəyaz qar örtür. Ağ rəng hekayənin bu hissəsi üçün fon kimi seçilib. Bu həm Lizelin kiçik qardaşının məsumluğuna işarə edir, həmçinin qızcığaz və anasının üşüyən ruhlarını əks etdirir.

Əsərdə qırmızı rəng insanın axan qanını, zorakılığı, müharibəni və təhlükəni simvolizə edir. Səmanın qırmızı rəngə boyanması atılan bombaların simvoludur və axan insan qanlarının nəticəsidir. Müəllif qırmızının fərqli çalarını yaradır. *"Səma saatlarla evdə bişmiş şorba kimi qızarıb qaldı... Səbəb – buludların içərisində gizlənmiş adamların atdığı bombalar idi".* (3, s. 20)

Ölüm onda nifrət yaradan nasist Almaniyasının bayrağını belə təsvir edir: *"Onlar üst-üstə düşür. Qara cızma-qara Yer kürəsinin gözü kor edən ağının və qırmızı qatı şorbanın üstünə".* (3, s. 21) Səma sakit günlərdə mavi, bombardmanlar zamanı isə tüstülü və yanıqlı qatı qırmızı şorba rənginə boyanır. *"Mən sonuncu dəfə onu görəndə rəngi qırmızıydı. Səma qaynayan şorbaya bənzəyirdi. Bəzi yerləri yanmışdı. Qırmızının içərisində qara tikələr və bibər dilimləri görünürdü".* (3, s. 19)

Lizelin övladlıq verildiyi ailədə atası Hans Hubermanın peşəsinin rəngsaz olması da, fikrimizcə, təsadüfi deyil. Belə ki, Lizel məhz onun sayəsində qardaşının ölümündən sonra ayağa qalxmağı, oxumağı öyrənir. İndiyə kimi oxumağı bilməyən Lizelin boz həyatına atalığı sayəsində rəng qatılır. Hans Huberman sözlər vasitəsilə qızcığazın həyatını da rəngləndirir.

Həmçinin əsərdə Hans Hubermanın gözlərinin gümüşü rəngdə təsviri onun saflığına işarə edir. "Yorğun təbəssüm. Metal rəngli baxışlar əriyir. Deməli oxuyacağıq". (3, s. 72)

M.Zusak "Kitab oğrusu" əsərində rənglərin yeni çalarını yaratmış və hər rəngə yeni məna qatmışdır. Ölümün dili ilə dünyanı təqdim edən müəllifin demək istədikləri isə aşkardır: Bu dünyada hər rəng var. Hansını seçəcəyi insanın öz əlindədir.

## Nəticə

Nəticə olaraq deyə bilərik ki, simvol və rəng anlayışı hər bir mədəniyyətdə mövcuddur. Hər iki kateqoriya özlüyündə dünyanı tanıma və dərketmə yoludur. Hər ikisi mənasının çox yönümlüyünə görə güclü idarəetmə vasitəsidir. İnsanlar tarixən simvollar vasitəsi ilə birlik olmuş, ya savaş etmiş, ya da müdafiə olunmuşlar. Bütün bunları nəzərə alsaq, demək olar ki, həm simvol, həm də rənglər təkcə xalqların mədəniyyətinin və dünyagörüşünün deyil, həmçinin tarixinin kilidini açan açardır.

"Kitab oğrusu" romanında istifadə olunan rəng simvolikası əsərə bədii gözəllik qatmaqla yanaşı, oxucuya müharibənin rənglərini də göstərir. Əsərdə ən çox istifadə olunan qırmızı rəng – qanı, qara, boz və digər tünd rənglər isə müharibə dövründəki yaşamı və insanların psixologiyasını simvolizə edir. Müəllif rənglər vasitəsilə müharibə əhval-ruhiyyəsini əks etdirir.

## ƏDƏBİYYAT

1. XX əsr dünya ədəbiyyatı antologiyası. III c. Bakı: Şərq-Qərb, 2011, 488 s.
2. Rza R. Seçilmiş əsərləri. 3-cü cild. Bakı: Öndər, 2005, 256 s.
3. Zusak M. Kitab oğrusu. Bakı: Qanun, 2018, 592 s.
4. Piercy J. Semboller. Evrensel bir dil. İstanbul: Maya Kitap, 2021, 215 s.

5. Ratner V. Banyan ağacının gölgesinde. İstanbul: Aspendos Yayıncılık ve Eğitim, 2013, 503 s.
6. Бенуас Л. Знаки, символы и мифы. Москва: АСТ Астрель, 2006, 153 с.
7. Тодоров Ц. Теории символа. Москва: Дом интеллектуальной книги, 1999, 384 с.
8. Бакеева А.Д. Символика цвета в разнообразных культурах мира: мифологический этап // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы и темы практики, 2012, №6-2 (20), с. 30-33.
9. Велиева Ф. Мифическое понимание цветов в турецкой литературе XIII-XIV веков // Сборник статей Международного круглого стола, 2021, с. 60-69.
10. Гевельевна С. М. Знаковость цвета в религиозных произведениях // Социальные трансформации, 2019, №30, с. 135-140.
11. Денисова Л. В. Символика цвета в русской и китайской культуре // Язык и культура, 2015, № 16, с. 134-140.
12. Павлов Н.А. Свастика – символ под запретом // Законность и правопорядок в современном обществе, 2012, №10, с. 137-142.
13. Чженьнан У. Цвет в культуре Китая / В сборнике: Диалог культур – диалог о мире и во имя мира. Материалы IX Межународной студенческой научно-практической конференции, 2018, с. 235-238.

**_Резюме_**

**_Нармин Гамидова_**

**_Проявление цветового символизма в произведение «Книжный вор»_**

Со времен первых людей и до наших дней средства понимания не изменились. Процесс восприятия происходит через пять органов чувств. Это средства зрения, слуха, обоняния, вкуса и осязания. Но в результате развития и эволюции сознания человек пытался понять окружающее через символы. Символы, прошедшие проверку историей, сохранились до наших дней. Скорее всего, они не смогли сохранить свое первоначальное значение в новое время. Но даже если они претерпевают изменение, можно сказать, что они имеют значение, близкое к первоначальному значению.

Тот факт, что исходной формой письменности, давшей толчок развитию человечества, была форма символа, свидетельствует об историчности этого понятия и исходной формы самовыражения людей. Под символом мы подразумеваем знаков. Однако не следует забывать, что первоначальной формой символа был знак. Иными словами, символ – это знак, наполненный смыслом. Символы знакового типа, которые раньше обозначали только предмет или живое существо, сформировались с течением времени и уже обозначали определенное событие или понятие.

Объем символов широк. При взгляде на историю мировой культуры видно, что цветовая символика относится к числу наиболее распространенных символов. Независимо от религии, расы или национальности люди различают цвета одинаково. Однако приписываемые им значения могут меняться из-за нюансов, перечисленных выше.

Цветовая символика и символы в целом используются как в повседневной жизни, так и в художественной литературе. В литературе символы используются в основном для усиления художественного воздействия произведения. В статье пойдет речь о цветовой символике, использованной в книге «Книжный вор» представителя австралийской литературы Маркуса Зусака, о каких цветах автор говорит больше всего и почему, а также рассмотрим историю и линию развития цветовой символики. Будет исследовано значение цветов исторически, как они формировались под влиянием разных народов, культур, религиозных мировоззрений.

**_Ключевые слова_**: *символ, цвет, "Книжный вор", Маркус Зусак, Австралия*

**_Summary_**

**_Hamidova Narmin_**

**_Manıfestatıon of Color Symbolısm in "The Book Thıef"_**

The methods of comprehending have not altered from the time of the formation of the first humans to modern times. The process of perception takes place through the five sense organs. These are the means

of sight, hearing, smell, taste and touch. But as a result of the development and evolution of consciousness, man tried to understand the environment through symbols. Symbols that have stood the test of history have survived to this day. They probably could not retain their original meaning in the present day. Even so, they undergo change, it can be claimed that they have a meaning close to the original meaning.

The fact that the initial form of writing, which spurred the development of mankind, was in the form of a symbol, testifies to the historicity of this concept and the initial form of self-expression of people. A symbol here means more signs. However, we should not forget that the original form of the symbol was a sign. A symbol is a sign with hidden meaning, to put it more simply. Symbols of the sign type, which previously denoted only an object or a living being, were formed over time and already denoted a certain event or concept.

The range of symbols is wide. When looking at the history of world culture, it is seen that color symbolism is among the most common symbols. Regardless of religion, race or nationality, people distinguish colors in the same way. Nonetheless, the meanings assigned to them can change due to the above-mentioned nuances.

Color symbolism, and symbols in general, are used both in everyday life and in fiction. Symbols are mostly utilized in literature to enhance the artistic effect of the work. The article will talk about the color symbolism used in the book "The Book Thief" by the representative of Australian literature, Markus Zusak, which colors the author talks about the most and the reasons why, as well as look at the history and development line of color symbolism. The meaning of colors historically, how they were formed under the influence of various peoples, cultures, and religious worldviews will be investigated.

***Key words:*** *symbol, color, “The Book Thief”, Markus Zusak, Australia*

Məsul katib fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.